# Azərbaycanda qadın şairə Azərbaycan türkcəsində "ikinci divan" kitabını yazdı

Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda ilk "Divan" kitabı yazan qadın şairənin "İkinci Divan" kitabı işıq üzü gördü. Şərqdə qadınlar arasında ilk "Divan" Təbrizdə yaşamış Heyran xanım tərəfindən yazılmışdır, amma o kitab fars dilində idi. AYB və AJB üzvü Gülarə Munis ilk "Divan" kitabını 2007-ci ildə çap etdirib oxucuların ixtiyarına vermişdi. Bu günlərdə müəllifin "İkinci Divan" kitabı nəşr olunub. G. Munis ehtiram əlaməti olaraq kitabın əvvəlində XIX əsrdə yaşayıb yaratmış Heyran xanımın adını xüsusi olaraq qeyd edir. Müəllif daha sonra yazır ki, nə vaxt üçüncü "Divan" yazsam, yenə Heyran xanımın adı mənim




adımdan əvvəl qeyd olunacaq. Gülarə Munis klassik ədəbiyyatda Divan bağlayan müəlliflərin ənənəsini qoruyaraq kitabı Dibaçə ilə (yəni Allaha müraciətlə) başlayıb, Xatimə ilə (yəni Allaha təşəkkür etməklə) tamamlayıb. Birinci "Divan" kitabında iyirmi altı ədəbi janrda nümunələr toplanmışdı, "İkinci Divan" isə daha mükəmməldir, burada müəllif otuza yaxın ədəbi janrda olan əsərlərini bir yerə cəm edib. Kitabda minacatlar, nətlər, qəzəllər, qəsidələr, klassik şairlərin əsərlərinə yazılmış təxmislər, nəzirələr, bahariyyələr, xəzaniyyələr, bayatılar, laylalar, şəhidlər üçün yazılan ağılar, təkbeytlər, dübeytlər, surudlar, məsnəvilər, qitələr və başqa janrda olan əsərlər yer alıb. Kitabda bəzi əsərlərə uyğun olaraq Quran surələrindən ayələr də qeyd olunub. Türkiyə Milli Egitim Bakanlığında İqtisadçı vəzifəsində çalışan ədəbiyyatşünas alim Kamil Asker füzulişünas Mustafa Kıstırakla birlikdə müəllifin dörd qəzəlini türk dilinə çerirmiş və beytlərin geniş şərhini yazmışdır ki, onlar da kitaba daxil edilib. Onu da qeyd edək ki, Türkiyədə Mehmet Akif Eysoy adına universitetdə çalışan doktor Pərvanə Bayram Gülarə Munisin 1-ci "Divan" kitabını tədqiq etməklə elmi iş üzərində çalışır.

***Aidə KƏRİMOVA***

Kredo.- 2023.- 29 sentyabr.- S.5.